# Moldovada 20 Yanvar faciəsi ilə bağlı tədbir






**Qara Yanvar hadisələrindən 29 il keçir. 1990-cı ilin yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib.**

Bu günlərdə Azərbaycan Respublikasının Moldova Respublikasındakı səfirliyində 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə bağlı tədbir keçirildi. Anım mərasimində Azərbaycan diasporunun fəalları, tələbələr, gənclər, Moldovanın KİV nümayəndələri iştirak edirdilər.

Azərbaycanın Moldovadakı fövqəladə və səlahiyyətli səfiri Qüdsi Osmanov mərasimdə çıxış edərək vurğuladı ki, 20 Yanvar Azərbaycanda Ümumxalq Hüzn Günü kimi qeyd olunur. 29 il öncə sovet ordusu Bakı şəhərində analoqu olmayan faciə törətmiş, təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirinə məruz qalan Azərbaycan xalqı azadlıq əzmini itirməmiş, əksinə şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğınlardan uzun illər keçməsinə baxmayaraq, Azərbaycan xalqı o dəhşətli gecənin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Səfir Qüdsi Osmanov sözünə davam edərək bildirdi ki, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu, ulu öndərimiz Heydər Əliyev həyatını təhlükəyə qoyaraq, faciənin ertəsi günü Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da Heydər Əliyev cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əslində, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra bilmədi, azadlıq eşqini söndürmədi.

20 Yanvar faciəsinin 29-cu ildönümü ilə bağlı keçirilən tədbirdə Moldova Azərbaycanlıları Konqresinin sədri Vüqar Novruzov çıxış edərək bildirdi ki, 29 il bundan öncə Azərbaycanın Dövlət müstəqilliyi uğrunda mübarizə apararaq şəhid olmuş qəhrəman oğul və qızlarımız bir daha sübut etdilər ki, xalqımızın müstəqillik və azadlıq əzmini sındırmaq olmaz. Həmin gecə sinələrini müstəqilliyimizə tuşlanmış gülləyə sipər edən oğul və qızlarımızın qəhrəmanlıq cəsarətinin heç zaman unudulmayacağını, bu şanlı tarixin gələcək nəsillərə örnək olacağını bildirdi.

Vurğuladı ki, gec-tez Bakı qırğınında əli olan cinayətkarlar ədalət məhkəməsi qarşısında cavab verəcəklər.

Anım tədbirinin sonunda 20 Yanvar şəhidlərinə həsr edilmiş stendin önünə tər gül dəstələri düzüldü.

**Qədir ASLAN,**
**"Respublika".**